***Cavid BAĞIRZADƏ*** *

# AKADEMİK YAQUB MAHMUDOVUN 1970-Cİ İLLƏR ELMİ YARADICILIĞINDA AZƏRBAYCANIN ORTA ƏSRLƏR TARİXİ MƏSƏLƏLƏRİ

**Açar sözlər:** Akademik Yaqub Mahmudov, Azərbaycanın orta əsr tarixi məsələləri, Ağqoyunlu dövləti, Ağqoyunlu-Venesiya münasibətləri, Azərbaycan diplomatiyası, Osmanlı dövləti.

**Key words:** academician Yagub Mahmudov, medieval historical issues of Azerbaijan, Aghgoyunlu state, Aghgoyunlu-Venice relations, Azerbaijani diplomacy, Ottoman state

**Ключевые слова:** академик Ягуб Махмудов, вопросы истории средних веков Азербайджана, государство Аккоюнлу, взаимоотношения государства Аккоюнлу с Венецией, дипломатия Азербайджана, Османская империя.

Azərbaycanın orta əsrlər tarixinin bir çox məsələləri bu gündə elmi aktuallığı ilə seçilir. Təsadüfi deyildi ki, Azərbaycanın orta əsr tarixi məsələləri ilə bağlı həm yerli, həm də xarici tarixçilərin çoxlu sayda tədqiqat əsərləri çap olunmuşdur. Təəssüf hissi ilə qeyd edək ki, müxtəlif dövrlərdə Azərbaycanın orta əsr tarixi məsələlərinin tədqiqi ilə məşğul olmuş tədqiqatçılar tariximizin bu dövrünü bəzən obyektiv araşdırmamışlar. Bunun bir çox səbəblərinə keçmiş Sovet dövrünün ideoloji məsələlərini, Sovet hakim dairələrinin Azərbaycan tarixinin obyektiv və Türk dünyası tarixinin tərkib hissəsi kimi öyrənilməsinə qarşı münasibətini və siyasətini, eləcə də bu dövrün tarixi məsələlərinin araşdıranlar içərisində bəzi başqa millətlərin nümayəndələrinin də olmasını misal göstərmək olar. Bu baxımdan 1970-ci illərdə Azərbaycan tarixinin orta əsr məsələlərinin obyektiv olaraq araşdırılması bəhs olunan dövrdə böyük cəsarət tələb edirdi və bu cəsarətin kökündə isə vətəninə, millətinə olan böyük sevgi hissi dururdu. Məhz belə bir cəsarətə, sevgiyə malik, bu dövrdə Azərbaycanın orta əsrlər dövrü tarixini obyektiv tədqiq edən görkəmli tədqiqatçılarından biri də akademik Yaqub Mahmudov olmuşdur. 80 yaşlı akademik Yaqub Mahmudovun elmi yaradıcılığı son dərəcə zəngin olması ilə yanaşı tədqiqat obyekti və mövzunun genişliyilə də diqqəti cəlb edir. Akademik Yaqub Mahmudov təkcə elmi-tədqiqat əsərlərin deyil, eyni zamanda həm ali, həm də orta ümumtəhsil məktəblər üçün çoxlu sayda dərslik, dərs vəsaitlərinin müəllifidir.

---

* **Cavid Bağırzadə - Gəncə Dövlət Universiteti, Azərbaycan tarixi kafedrasının dosenti**

Akademik Yaqub Mahmudovun tədqiqatları içərisində XV-XVI əsrlər dövründə Azərbaycanın beynəlxalq münasibətləri tarixi mühüm yer tutur. Görkəmli tarixçinin keçən əsrin 70-ci illərində çap olunmuş məqalələrində Ağqoyunlu dövlətinin xarici əlaqələri xüsusilə öz əksini tapmışdır [3; 4; 5; 6; 7]. Bəhs olunan dövrdə görkəmli tarixçinin Ağqoyunluların diplomatik əlaqələri və Ağqoyunlu dövlətinin bir çox tarixi məsələlərinin tədqiqinə həsr edilmiş iki kitabı da çap olunmuşdur. Haqqında danışacağımız əsərini təsadüfi deyildi ki, akademik Yaqub Mahmudov haqlı olaraq "Öyənilməmiş səhifələr" adlandırmışdı. Çünki bu əsərində Ağqoyunlu dövlətinin bir çox tarixi məsələlərinə, Ağqoyunluların Avropa dövlətləri ilə diplomatik və iqtisadi əlaqələrinə dair bir çox mətləblərə aydınlıq gətirilmiş, tariximizin öyrənilməmiş səhifələri öyrənilmişdir. Bir məsələ xüsusilə qeyd edilməlidir ki, akademik Yaqub Mahmudovun əsərlərinin dili axıcıdır, oxucunu, Vətən tarixini öyrənən hər kəsi sətirlər yormur, əksinə əsərin dili oxucunu öz cazibəsinə salır.

Akademikin 1972-ci ildə çap olunmuş "Öyənilməmiş səhifələr" əsəri ön söz, Ağqoyunlu dövlətinin tarixinə dair oçerklər və son sözdən ibarətdir. Əsərdə "Ağqoyunlular kimdi?" adlı ilk oçerkdə müəllif hələ o zaman böyük cəsarətlə tarixi Azərbaycan torpaqlarındakı, indiki Ermənistanın ərazisindəki yaşayış yerlərindən, coğrafi yerlərdən bəhs edərkən o zamankı bir çox müəlliflərdən fərqli olaraq tarixi yer adlarını – Göyçə gölünün, Alagöz yaylaqlarının adlarını olduğu kimi ifadə etmişdir. Hansı ki, bəhs olunan dövrdə yazılan əsərlərdə Göyçə gölü Sevan, Alagöz yaylaqları isə Vardanes yaylası kimi ifadə edilirdi. Həmçinin keçmiş Sovet İttifaqına daxil olan slavyan xalqlarının ilk dövləti olan Kiyev dövlətinin tarixində türkdilli xalqların, o cümlədən berendeler-bayandurların rol oyandığının tarixi həqiqət olduğunu təsdiq edir. Həmçinin hələ o zamanlar Azərbaycan türklərinin təşəkkülü prosesinin saxtalaşdırıldığı bir dövrdə, təşəkkül prosesinin XI əsrdə Səcuqların dövründə Oğuz boylarının axınları nəticəsində baş verməsi kimi kökündən yanlış fərziyyənin irəli sürüldüyü bir vaxtlarda gənc tədqiqatçı olan Yaqub Mahmudov yazırdı ki, mənşəcə Oğuz olan ağqoyunlular VI əsrin sonu, VII əsrin əvvəllərində Qarabağda, Göyçə gölü ətrafındakı rayonlarda, Alagöz yaylaqlarında yaşayırdılar [1, s.6]. Bu o demək idi ki, 1972-ci ildə gənc tədqiqatçı olan akademik Yaqub Mahmudov çap olunmuş əsərində Qarabağın, Göyçə gölü ətrafının, Alagöz yaylaqlarının qədim Oğuz yurdu olduğunu göstərirdi. Bəhs olunan dövr Qafqaz Albaniyasının mövcud olduğu dövrdür və dolayısı ilə müəllif Albaniyanın əhalisinin türkdilli olduğunu, Oğuz boyları olduğu tarixi həqiqəti dövrün şərtlərinə baxmayaraq cəsarətlə təsdiq edirdi. əsərin "Ağqoyunlu dövləti və beynəlxalq münasibətlər" adlı ikinci oçerkində Ağqoyunluların XV əsrin ikinci yarısında beynəxalq münasibətlərindən,





Ağqoyunlu dövlətinin Böyük Moskva knyazlığı, Venesiya respublikası, Polşa, Avstriya, Macarıstan, Çexiya, Papalıq, Burqundiya hersoqluğu, Neapol krallığı, Rodos, Kipr, Qaraman əmirliyi, Misir, Hindistan və s. dövlətlər arasında qarşılıqlı əlaqələrindən bəhs etmişdir [1, s.7-11]. Bununla da müəllif ilk dəfə olaraq Azərbaycan diplomatiyasının tədqiqatçısı kimi çıxış edir. Bu əsərində müəllif ayrıca olaraq Böyük Moskva knyazlığı və Böyük Orda ilə əlaqələrindən ayrıca olaraq bəhs etmişdir [1, s.12-13]. Orta əsrlər dövründə, o cümlədən də XV-XVI əsrlərdə, Ağqoyunlu dövlətinin mövcud olduğu dövrdə Avropa və Şərq ölkələrinin bazarlarlarında Azərbaycan ipəyinə böyük tələbat vardı və ipək ticarəti geniş vüsət tapmışdı. Ağqoyunlu dövlətinin Avropa ölkələri ilə iqtisadi əlaqələri, ipək ticarəti Yaqub Mahmudovun bəhs olunan əsərində ayrıca yer almışdır [1, s.13-24].

Əsərdə Ağqoyunlu bəyliyinin Trabzon yunan dövləti ilə əlaqələri bütün tərəfləri ilə konkret şəkildə öz əksini tapmışdır. Ağqoyunlu-Trabzon əlaqələrini təhlil edərkən müəllif bir çox Qərbi Avropa ölkələrinin, Papalığın, gürcü knyazlıqlarının da Trabzonla bağlı diplomatik münasibətlərinə də toxunmuşdur [1, s.24-28]. Başqa sözlə, Yaqub Mahmudov Ağqoyunlu-Trabzon münasibətlərini geniş aspektdə araşdırmış və beləliklə də oxucu hərtərəfli məlumatları əldə edə bilir. Əsərdə yer almış mühüm tarixi oçerklərdən biri də görkəmli Azərbaycan qadın diplomatı Sara xatun və onu diplomatik fəaliyyəti haqqındakı araşdırmadır. Müəllif Sara xatunun Ağqoyunlu sarayındakı fəaliyyətinə də toxunur, onun Bayandurlar sülaləsinin daxilindəki ziddiyyətlərin aradan qaldırılmasında və taxt-tac uğrundakı müharibələrin sakitləşdirilməsində oynadığı müdrik roluna diqqət çəkir [1, s.29]. Həmçinin Sara xatunun diplomatik fəaliyyətini böyük ustalıqla xarakterizə edən Yaqub Mahmudov yazır ki, bütün Şərqdə yeganə istedadlı diplomat qadın idi. Sara xatunu bir diplomat, həmçinin dövlət xadimi kimi təkcə Şərqdə deyil, Avropa ölkələrində də tanıyırdılar. Ağqoyunlu dövlətinin xarici ölkələrlə diplomatik əlaqələrində Sara xatunun rolu mühüm idi. Uzun Həsən bütün xarici siyasət məsələlərini onunla məsləhətləşir, ən məsul diplomatik danışıqlar üçün onu göndərirdi. O, nəinki xarici ölkələrin ayrı-ayrı diplomatları ilə, həmçinin teymuri hökmdarı Əbu Səid, Osmanlı sultanı II Mehmet kimi dövlət başçıları ilə də diplomatik danışıqlar aparmış, Ağqoyunlu dövlətinin xarici siyasi mənafeyini müvəffəqiyyətlə müdafiə etmişdir [1, s.29].

Ağqoyunlu-Osmanlı münasibətlərində mühüm məqamlardan biri də Qaraman bəyliyi olmuşdur. Akademik Yaqub Mahmudov Qaraman hadisələrindən və onun Ağqoyunlu-Osmanlı münasibətlərində oynadığı rolu araşdırmışdır [1, s.32-37]. Bəhs olunan əsərdə Ağqoyunlu dövlətinin (həmçinin 1468-ci ilə kimi Ağqoyunlu bəyliyinin) Avropa ölkələri, o cümlədən də Venesiya Respubli-

kası ilə diplomatik münasibətlərini təhlil edərək iki dövrə bölmüş, Ağqoyunlu-Venesiya münasibətlərindən ətraflı şəkildə bəhs etmişdir [1, s.37-43]. Əsərdə mühüm oçerklərdən biri də görkəmli Azərbaycan hökmdarı, Ağqoyunlu dövlətinin banisi Uzun Həsənin dövlətçilik və diplomatik fəaliyyətinin araşdırılmasına həsr edilmişdir [1, s.43-51]. Akademik Yaqub Mahmudov Uzun Həsəni iqtisadi və dini siyasətinə toxunur, onu uzaqgörən dövlət xadimi, görkəmli sərkərdə, diplomat və ədalətli bir hökmdar kimi xarakterizə edir.

Ağqoyunlu elçilərinin Venesiya, Roma, Polşaya göndərilməsindən, aparılan danışıqlar, diplomatik əlaqələrdən bəhs edən müəllif Azərbaycan tarixinin öyrənilməmiş səhifələrinə aydınlıq gətirir [1, s.52-57, 62-68]. Ayrıca olaraq Ağqoyunlu dövlətinin Polşa, Macarıstan, Venesiya, Papalıq və Neapol krallığı ilə aparılmış danışıqlar tədqiq edilmişdir [1, s.77-80]. Müəllif Ağqoyunlu dövləti ilə Osmanlı dövləti arasındakı münasibətlərin gərginləşməsinə hesablanmış Venesiya, Papalıq və digər Avropa dövlətlərinin ikiüzlü siyasətini göstərmişdir [1, s.77]. Əsərdə diplomatik münasibətlər baş vermiş tarixi hadisələrin nəqli ilə birlikdə xronoloji ardıcılıq gözlənilməklə verilmişdir. Əsərdə Malatya qələbəsi və Otluqbeli döyüşünün tarixi araşdırılmış, tarixçinin Ağqoyunlu-Osmanlı müharibəsinin nəticələri ilə bağlı fikirləri yer almışdır.

Zəngin elmi yaradıcılığa və pedaqoji fəaliyyətə malik, görkəmli təşkilatçı akademik Yaqub Mahmudovun 1970-ci illəri əhatə edən elmi yaradıcılığı haqqında kiçik bir məqalədə təfərrüatı ilə bəhs etmək şübhəsiz ki, mümkün deyildi. Tarixçilərin, tədqiqatçıların masaüstü kitabları olan akademik Yaqub Mahmudovun əsərləri elmi aktuallığı ilə seçilir və tədqiqatçıların başlıca istinad etdikləri sanballı elmi ədəbiyyatdır.

## MƏNBƏLƏR VƏ ƏDƏBİYYAT


1. Mahmudov Y.M. Öyənilməmiş səhifələr. Bakı, "Gənclik" nəşriyyatı, 1972, 100 s.
2. Mahmudov Y.M. Səyyahlar Azərbaycana gəlir. Bakı, 1977
3. Mahmudov Y.M. Venesiya diplomatı İosafat Barbaro Azərbaycan haqqında. // "Elm və həyat" jurnalı, Bakı, №7, 1970.
4. Mahmudov Y.M. Osmanlı Türkiyəsinin xarici siyasəti və Ağqoyunlu –Venesiya münasibətləri. // V.İ.Lenin adına Azərbaycan Dövlət Pedaqoji İnstitutu elmi-nəzəri sessiyasının materialları. Bakı 1970.
5. Mahmudov Y.M. Ağqoyunlu – Venesiya diplomatik əlaqələrinin əsas məsələsi. // V.İ.Lenin adına Azərbaycan Dövlət Pedaqoji İnstitutu elmi-nəzəri sessiyasının materialları. Bakı 1971.







6. Mahmudov Y.M. Azərbaycanın Avropa ölkələri ilə diplomatik əlaqələri (XV əsrin 70-ci illəri). // Azərbaycan Dövlət Universitetinin "Elmi əsərləri", tarix və fəlsəfə elmləri seriyası. Bakı, №4, 1978.
7. Mahmudov Y.M. Ağqoyunlu – Venesiya münasibətlərində Türkiyə problemi. //Azərbaycan SSR Elmlər Akademiyasının "Xəbərləri", tarix, fəlsəfə, hüquq seriyası, Bakı, №2, 1971.


**Javid Baghirzade**

**Medieval historical issues of Azerbaijan in the scientific creation of academician Yagub Mahmudov in the 1970s**
**SUMMARY**

The international relations of Azerbaijan during the XV-XVI centuries take an important place in the works of academician Yaqub Mahmudov. External relations of foreign relations of the Aghgoyunlu state were reflected in the published works of the prominent historian in the 70s of the last century. It was not accidental that academician Yagub Mahmudov had rightly labeled his published work as «Uninvestigated pages». Because a lot of historical facts of the Aggoyunlu state, many facts about the diplomatic and economic relations of the Aghgoyunlus with the European states, and uncovered pages of our history were clarified in this work. Academician's 1972 edition of «Uninvestigated pages» contains foreword, essays on the history of Aggoyunlu and the last word. Unlike many historians of that time, the author bravely used the names of historical places such as Goycha lake and Alagöz plateau in his work, while talking about historical places of Azerbaijan, geographically located in the territory of present-day Armenia.

**Джавид Багирзаде**

**Вопросы истории средних веков Азербайджана в научном творчестве академика Ягуба Махмудова в 1970-Х годах**
**РЕЗЮМЕ**

В исследованиях академика Ягуба Махмудова важное место занимает история международных отношений Азербайджана в XV-XVI веках.

В трудах выдающегося историка изданных в 70-х годах прошлого столетия уделено особое внимание именно внешнеполитической истории Аккоюнлу.

Не случайно академик Ягуб Махмудов по праву назвал свою работу «Неизученные страницы». Потому что в этой научной работе освещаются многие исторические факты касательно государства Аккоюнлу, разъясняется множество

вопросов относительно дипломатических и экономических отношений Аккоюнлу с европейскими государствами, исследуются неизученные страницы нашей истории. Произведение «Неизученные страницы» изданное в 1972-ом году состоит из предисловия, очерков по истории государства Аккоюнлу и заключения.

В своей работе автор говоря о географических и населенных пунктах исторически азербайджанских земель, современной Армении, делает очень смелые заявления для своего времени, и в отличие от многих авторов того времени указывая на исторические места называет их как есть - озеро Гекча, пастбища горы Алагёз.